# ZƏNGAN SƏMASINDA PARLAYAN ULDUZ

## *Ustad aşıq dədə Müslüm Əsgərinin həyatına qısa bir baxış*



**Səhra REZAYİ**
**rezayi.sahra@gmail.com**

**Müslüm Əsgəri sən el aşıqisən**
**şirin söz xoş həyat dil aşiqi sən**
**ay üzə tökülən tel aşiqi sən**
**söz qanmazan hərggiz söhbət eyləmə.**

Zəngan şəhərinin Tarım mahalından şöhrəti ucalan aşıq dədə Müslüm Əsgərinin Sazı sözü bu şəhərin sərhədlərini aşıb, indi də bütün türk dünyasına yayılmaqdadır. Zənganın aşıq səmasında parlayan iki işıqlı ulduzdan 2 biri olan dədə Müslüm Əsgəri seksən ilini başa vurub, sürüdügü dəyərli olan anlamlı bu uzun ömür də demək olar təkbaşına bir elə bərabər söz sahibi olan şəxsiyyətdir. Müasir zamanəmizin dədə qorqudun təmsil edən aşiq 1938-ci ilin iuly ayında İran islam cümhuriyyətinin shimalı-qərbində yerləşən türk şəhəri olan Zənganin badamıstan kəndində dünyaya göz açmışdır. Kəndin digər uşaqları kimi elm öyrənmək üçün məktəbə gedən Müslüm, 1955-ci ildə məktəbi bitirdikdən sonra dogma kəndini tərk edir. Dini mədrəsələrdə təhsil alan aşıq Tofiq və Şəriəti məktəblərində ədəbiyyat üzrə diplom almağa muvaffaq olur.

Uşaqlıqdan qulağına tanış olan aşıq dastanları onun üreyində dərin izlər salıb yarım əsrə yaxın bir müddətdə güclü bir zəncir kimi onu bu sənətə bağlamışdır.

Aşıqlıq sənətini atasından öyrənib 20 yaşlarından bu sənətdə məşğul olan dahi sənətkar, davamlı olaraq 50 ilə yaxın aşiqların tarixdə yadigar qoyan izlərini addımlayaraq onlardan toplanan gəncinələri bizə çatdırmışdır. İşıqlı olan bu uzun yolun yolçusu olan aşıq Müslüm ustadlarından fərqli olaraq ilk dəfə öz bildiyi ilə ustadlarından yadigar qalan dastanları özünəməxsus qırmızı dəflərində qeydə alib beləcə adını dastanlar aşiqi olan əzəmətli bir heykəl kimi tarixə salmışdı.

Bu dünyaya neçə aşıqlar gəlib
Sözü dillərdədir kamil aşiqin
Asiq muəllimdir, aşiq alimdir
Adı ellərdədir kamil aşiqin.

**Aşıq xəstə Qasim, aşiq Ələsgər**
**Dədə Qurbanıdır o aşiq Əkbər**
**Huseyn Buzulqanlı o dədə Begler**
**Dədə Şəmşir kimi kamil aşiqin.**

Özün Müslüm Əsgəri sən aşıq bilmə
Həcvi həzyan sözə bihuda gülmə
Vədəsiz bir yerə dəvətsiz gəlmə
Onda qısa olar dili aşiqin

Böyük sənətkar atası aşıq zöhrabdan aşıqlıq sənətini öyrənib 1967-ci ildən rəsmi şəkildə"aşıqlıq" sənətilə məşğul olur. Uzun illər bu yolda çalışan ustad 40 ilə yaxın müxtəlif şəhər və kəndlərdə o cümlədən Tarım, Zəngan, Xalxal, Tehran, Qum və Urmu şəhərlərində toylar çalıb, el şənliklərində iştirak etmişdir. Qeyd etmək lazımdır ki onun siyasi fəaliyyətinə görə dövlət işlərində işləmək qadağa qoyulan ustad aşıq, təhsili ilə yanaşı çörək pulu qazmaq üçün dərzilikdə öyrənir.





Atasından öyrəndiyi aşıq sənətinin əsas dərslərini klassik təhsil ilə birləşdirən istedadlı sənətkar ifaları ilə yanaşı, nitq qabiliyyəti olan aşıq musiqisinə taze nəfəs olub yeni fọrmalar bağışlamışdır

Hər ayım hər günüm söz ilə keçdi
Oxudum sözlərim qaldı ellərdə
Dastan nəğl oldu söz belə keçdi
Həm şeirim söhbətim qaldı dillərdə.

Müslüm Əsgəriyəm dosta bağlıyam
Çaylar kimi şaqqıldayam çağlayan
Mahalım tarımdı azər oğluyam
Yaşılbaş sonalar qaldı göllərdə

Musiqi sahəsində əfsanə kimi yaşayıb-yaradan dədə Müslümün həyat xatirələrinə qısa bir baxış bizi çox uzaq keçmişlərə götürür...

Cavanlıqdan gözəl bir mənzərə

Payızın son günlərinin soyuq küləyi qırmızıya boyanan yarpaqları bəzəkli bir xalça kimi yerə sərnişdə. Cansız günəşin altına boyadan ağ dağları qar alıb ətrafına soyuq işıq saçırdı. Yerə-göyə lətafət bağışlayan bir hava Hindi kəndində çalınan aşıq havaları ilə birləşib bütün kəndi bürümüşdür. Cavan yaraşıqlı olan aşıq ilk toyunu çalmaq üçün dostları ilə birlikdə bu kəndə gəlmişdi. Kəndin ortasında balaban səsi aşığın çaldığı sazın səsinə qarışıb göylərə ucalmışdır. Aşıqların çaldığı şən havalar kəndliləri ağ otaqda olan şənlikə dəvət edirdi. 40 gün buyunca davam edən Əsgər kişinin oğlunun toyu havada gəzən soyuq sazağı camaata unutdurub, onları bir yerə gətirmişdi. Cavan aşıq sazı səsləndirib atasından öyrəndiyi dastanları böyük bir cəsarətlə ifa edirdi.

Beynindəki dastanlar hər biri bir el obanın illər boyu yaşanan təcrübələr olub, onun saz sözündə bir daha canlanırdı. Sözlərinə qulaq asan insanları birlik, mehrabanlıq, duzlük ilə həqiqəti qanmaq və ən önəmlisi uca yaradana inanıb ona ürək bağlamağa dəvət edirdi.

Eşit sözümü sən, yaxşılıq elə
Dolaşma kasıba ay adam oğlu
Tut əlindən xətirinə dəymə
Naymut qaytarma ay adam oğlu.

**Oruc tut, namaz qıl haqq yolun atma**
**Hesabın çəkərlər gifletdə yatma**
**5 günlük dünyaya uqbanı satma**
**Oyan bir yuxudan ay adəm oğlu.**

Müslüm Əsgərinin çoxdu günahı
Yaxşı dostun olsun allah pənahı
Yetişsin dadinə şahların şahı
Sönər nari-neyran ay adam oğlu

Aşıqlar ocağı olan Zəngan şəhərində işıqlı ulduz kimi parlayan aşıq Müslüm Əsgəri illər boyu bu incəsənəti başdan yaradıb yaşadan bir vücud kimi hər zaman aşıqlıq sənəti ilə fəxr edir və sazı bir müqəddəs varlıq olaraq sinəsinə basıb köksündə əzizləmişdi.

Onun sözlərinə görə aşıq iştirak etdiyi məclislərdə birinci öz sənətinə dəyər verib orada əyləşənlərin qədrini bilməlidir. Ona görə aşıq elinin qanadı olub sazı silahdan daha güclü olmalidir.

Aşıqlıq sənətin hər kəsi istəsə
Aşıq ol əzizim aşıq ol aşıq
Hər bir saz çalana dədə deməzlər
Aşıq Ələsgərdir aşıq ol aşıq.

Dədə Qorquddan saz yadigar qalıb
Qoç Koroğlu sazın Eyvazda çalıb
Xan Emrah bu sazı siynəyə alıb
Dədə Şəmşir ol, sən aşiq ol aşıq.

Aslan oylağında nədir işləri
Hər gözəl dərənməz dağda gülləri
Çox sözün uzatma Müslüm Əsgəri
Dərs al ərənlərdən, aşiq ol aşıq.

Ədəbli ərkanlı olan sənətkarın yaşayış və məşğul olduğu incəsənəti onun sənət dostlarının sözlərində hər zaman öz əksini tapmışdır. Bu xəzinəni diri saxlayıb qoruyan ustad, sənətinin gözəlliyini mükəmməl şəkildə gözlər önünə sərib, saz sözündə olan tərifi dillərə dəstan olmuşdur.

**Müqeddes sayılan sazdan süzülən incilər, duyan insanların ruhların oxşayıb, dərs olaraq hər zaman həyat fəlsəfəsindən söz açmışdır.**

***(Davamı 6-cı səhifədə)***

# ZƏNGAN SƏMASINDA PARLAYAN ULDUZ

## *Ustad aşıq dədə Müslüm Əsgərinin həyatına qısa bir baxış*



*(Əvvəli 5-ci səhifədə)*

Minlərcə köçürdüyü gəlinlərin şənliklərində iştirak etdiyi insanlarla, uzaqdan yaxından tanıyanlarin xoş sözlərlə təriflərinə layiq görülüb beləcə dahi ustad aşıq Ələsgərin sözünü yerinə yetirmişdir.

Aşiq olub tərki vətən olanın
Əzəl başdan pur kəmalı gərəkdir
Oturub durmaqda ədəbin bilə
Mərifət elmində dolu gərəkdir.

Xalqa həqiqətdən mətləb qandıra
Şeytanı öldürə nəfsin yandıra
El içində pak otura pak dura
Dalısınca xoş sədalı gərəkdir. 5

Böyük ustadın sözlərinə görə aşıq gözəllikləri təbliğ edən müəllimdir. Aşıqın sazinda olan söz xəzinəsini xalqa yetirmək lazımdır. Onun danışdığı hər bir sözündə bir həyat fəlsəfəsi gizlənib. Bu dərin mənalı sözləri ancaq musiqinin məlahətli səsiylə insanlara yetirmək olar. Uzun illər aşıq məktəbində aldığı dərslərə görə bu sənətin daşıdığı ən böyük dərs, haqqı ilə həqiqəti tanımaq ona inanmaq və ondan dərs almaqdır.

Həqiqət yol ərkanı bilənlər
Görün nələr olub həqiqət üstə
Neçə dəfələrlə bu dünya
Dolubdur boşalıb həqiqət üstə

Oruc var, namaz var, əzəl binadan
Adəm atamızdan, həvva anadan
Nəmrud cəhlinən getdi dünyadan
Xəlili ota atdılar həqiqət üstə

Hanı bəs Şaddadın behişt pərgari
Necə oldu Fironun burcu hasarı
Zülmkarın dünyada qalmaz adı
Musa bir ad aldı həqiqət üstə

Sazı bağrına basıb özün aşıq adlandıran kişi oxuyub məclisləri şənləndirməklə kifayətlənmir,O, üzərində böyük bir məsuliyyət daşıyır. Zildan bəmə keçən müqəddəs sazın tellərinde dolaşan xoş nəğmələr insanların ruhunu oxşayıb onda gəzən mənalı sözləri dərs olaraq vurğulayır. Aşığın sazından süzülən incilər haqdan danışıb, həqiqət yolunu göstərən kəlmələrdir. Ona görə müqəddəs kitab Quranda vurğulandığı kimi hər bir gözəllik kəlmədən yaranmışdır. kəlmədən yaranan sözlər isə aşıqların dilində dolanan gözəlliklərə çevrilib mənəviyyat aləminin açarı kimi hər zaman uca yaratanın əlində olmuşdur. Aşıq mənəviyyat cəhətindən yüksəldikcə o qapıları açmağa nail olub, haqq aşığı kimi illər boyunca el obasına yol göstəribmişdir.

Bu məqsədə çatmaq böyük bir əzm tələb edir. Aşıq müslimin zənnicə bunlar hamısı düzlük və sədaqətdən irəli gəlir.

Aşıqın sazından süzülən incilər haxdan danışıb həqiqətə yönəldən kəlmələrdir. Ona görə müqəddəs kitab xana quranda vurğuladığı kimi hər bir gözəllik kəlmədən yaranmışdır kəlmədən yaranan sözlər aşıqların dilində dolanan gözəlliklərə çevrilib mənəviyyat aləminin açarı kimi hər zaman uca yaradanın əlində olub aşıq mənəviyyat cəhətindən yüksəldikcə o qapıları açmağa nail olub və haqq aşığı kimi illər boyunca el- obasına haqq yolunu göstəribdir bu böyük məqsədə çatmaq üçün böyük əzm





tələb edir aşıq müslümün zənnicə bunlar hamısı düzlükdən irəli gəlir.

Haqqın caddesini düz gedənləri
Allah onu heç bəlaya salmıyıb
Çəkər imtahanə imtahan alar
Kəm ağıllar masəvayə qanmayıb

Həzrəti əyyubə çox verib cəza
Yaqubun kim istər otunu yaza
Məcnunu salıbdır alova-közə
Əslı kerem mətləbini almayıb

Yusifı eylədi misirdə sultan
Dünyaya hökmran oldu suleyman
Fərhad qazmayla dağları yaran
Çapıb dağı o da kamın almayıb

Şəriətlə irfanın işıqlı yollarının yolçusu olan aşıq Müslüm Əsgəri, aşıqlıq sənətini təkcə şənliklərə məhdudlaşdırmayıb. Ona görə aşiq tarix, məzhəb habelə keçmiş ilə bu günün məsələrdən xəbərdar olmalıdır.

Ona verilən suallara cavab verməyə qadir olsun. Xalqı güldürən yerdə ağlatmağa qadir olan sənətkar aşıq bu sənətin nə qədər ulvi və ilahi olmağından xəbər verir.

Altı min həm altı yüz bu altmış altı ayədən
Yadıma düşdü huseynı tişnə ləb uryan bədən
Isti gün tabış edər nə sidr u kafuro kəfən
Eşqilən sərmeşq alıb hər yarəsi bir ayədən
Peykəri Quran kimi ayatə daradır əli

Zengan da aşıqlar karvanının önündə gedən Müslüm Əsgəri bu şəhərin özünəməxsus on iki vizual dastanlar oxuyub və yadigar saxlanıbdır. Aşıq Müslüm Əsgəri epik və aşıq dastanlar silsiləsindən dünya xalqlarının mədəniyyətindən 30-dan çox dastani 138-dən çox tamaşa şəklində ifa etməklə İran Azərbaycan respublikası və Türkiyə aşıqları arasında yüksək yer tutmuşdur. 40 -a yaxın dastan danışıb səsləndirən ustadın əsərləri kaset üzərində lente alınmışdır. Aşıq Müslümün Azərbaycan musiqisində ümumi mahnıları tam mənimsəməsiylə yanaşı özünəməxsus mahnıları da tam məharətlə ifa edib və öz ölkəsindən başqa bu sənətini bir çox xarici festivallarında eləcə də bir neçə milli və beynəlxalq seminarlarda iştirak etmişdir. "Aşıq Müslüm Əsgəri epik və romantik türk dastanları silsiləsindən 27 dasttani 130-dan çox kaset formatında ifa etməklə İran Aərbaycan respublikası hətta Türkiyə aşıqları arasında yüksək muvqey tutur. Onun 50-ci illərdə ifa etdiyi əsərlər arasında "Əsli ilə Kərəm " 14 kaset , "Xəstə Qasım " 4 kaset , "Yetim seydı " 6 kaset, "şah İsmayil" 6 kaset , "Şirin ilə Birçək " 3 kaset , "Kəlbi dastanı 3 kaset və 70-ci illərdəki digər qalıcı əsərləri arasında "Gulşən Verga" 6 kaset "Mirməhmud ilə Sara" 4 kaset və .... qeyd etmək olar. 6 " Uzun illər Azərbaycan, Türkiyə, İgiltərə, Fransa, Almaniya, Yaponiya və Çin kimi ölkələrə səfər edən ustad xüsusi ilə Azərbaycan Türkiyə ölkələrində rəsmi olaraq fəxri diplom Aalib təltif olunubş 2007-ci ildə Unesco təşkilatının fəxri medalına layiq görülən aşıq Müslüm Əsgəri İranda birinci sənətkar olaraq bu medalı almışdı. Şeir yazmağa davam edən ustad 2021-ci ilində şeirlərini bir kitab şəklində çap etdirdi.

Ürəyimdə neçə sözlər dolanır
Hər söz hər siri gəl açma dilim
Allah çəkib çox işlərə pərdəni
Allahın sözündən gəl qaçma dilim

Xəlqə söz açanlar özü xar olub
Bu gən dünya sirr açana dar olub
Paxıllar yaltaqlar giriftar olub
Qəlbin geniş olsun tez daşma dilim

Müslüm Əsgərinin keçən günləri
Sovuşdu ömürdən day gəlməz bəri
Ötürmə gözündən vətən elləri
Sakit ol yerində savaşma dilim

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 6-cı səhifədə)*




Anamdan örgəşdim dili məndədir
Günəş kimi işıq salır aləmə
Ətir səpən güllər gülü məndədir.

Dünyada türk dili lelı mərcandır
Torpağım dilimə canım qurbandır
Gözəllikdə bu dil gülü reyhandır
Türk sazını çalan əli məndədir

Müslüm Əsgəriyəm Zəngan vətənim
Iran göz işığım bəbəyim mənim
Öz ana dilimdi çiçək çəmənim
Sazı da məndədir teli məndədir

Duza çörəkə hörmət qoyan aşıq çalışdığı bu doğru yolda saz sözlə kifayətlənməyib, insanlarla bağlı olan münasibətlərində də düşüncəli ve el dərdi çəkən bir insan olmağını hər zaman nümayiş etdiribdir. Ustad şair aşıq dədə Müslüm Əsgəri hər zaman olduğu kimi birinci ustadı atası aşıq zöhrabdan yad edərək gəlmiş keçmiş ustadları hörmətlə anir.

Gecen ustadlara min rəhmət olsun
Nəsihət eyləyib onlar gedəndə
Göy söyüdə heyva olmaz nar rolmaz
Təriqətlər deyib onlar gedəndə
Köksüz-bil- insanda necabət olmaz

Heç kəsi istəməz səxavət olmaz
Yovuşanda ətir olmaz lətafət olmaz
Sədaqətlər deyib onlar gedəndə
Özün yorma dahi Müslüm Əsgəri
Kitabətlər deyib onlar gedəndə

Ustad Müslüm Əsgəri qocalıq vaxtına çatsa da insanların ürəyində qurduğu taxtdan eləcə də onların yaddaşlarında buraxdığı dərin izlələrdən heç nə əskik olmayıb əksinə onu sevənlər arasında Birçək ", "Kelbi ilə insan xanım" və sairə kimi 27 aşıq şifahi dastani var. Müxtəlif aşıq ənələri türklər arasında bir neçə min ildir ki nəsildən nəsilə, sinədən sinəyə qopuzun müşayiəti ilə yerli aşıq sənətkarları tərəfindən ifa olunur. Bu kitabda ustad Əsgərinin müəllifi olduğu " Mirzə Kazım " adlı dastani də var. Zənganli tədqiqatçıları Məhəmməd və Mustafa Rezaqi qardaşının şəxsi və müstəqil aşıq dastanlari layihəsi 2001-ci ildə başlamış və 22 ildən sonra nəhayət 2024-cü ilin mayında tamamlanmışdır.

*1. Bu məqalədə dərc olunan şeirlər el aşığı kitabından alınan şeirlərdir. bu kitab 2019-cu ildə nəşr olunub və o kitabda aşıq Müslümün şeirləri dərc olunmuşdur.*

*2. Aşıqlar ucağı olan Zəngan şəhərində iki işıqlı ulduz parıldayır. onlardan biri dədə Gülabəli Davudi o biri isə bu məqalə ona həsr olunan dədə Müslüm Əsgərini nəzərdə tutulur.*

*3. Zənganın özünəməxsus havaları və 12 hekayəsindən söhbət gedir.*











# ZƏNGAN SƏMASINDA PARLAYAN ULDUZ

## *Ustad aşıq dədə Müslüm Əsgərinin həyatına qısa bir baxış*

Aşıq Müslümün dəyərli işlərindən olan dahi sənətkar olan Xəstə Qasim dirildən və onun məzar daşını tapmaq olubdur. Onun rəvayət etdiyi dastanların birində apardığı işlər nəticəsində tədqiqatçı Pro-Dr Huseyn Siyami Bakı səfərində Xəstə Qasimin məzar daşını Azərbaycanın Tikmə daş kəndində tapıb və sənətkar üçün orda bir abidə tikilmişdir. Bakı səfərindən söhbət açan aşıq saz aşiqi olan dahi sənətkar "Ədalət Nəsibov"la görüşdüyü, ona sayqı duydugunu bildirmişdirşdir.

Aşıq Müslüm Əsgəri savadlı bir sənətkar olaraq güclü bir yaddaşda malik olub. O, təkbaşına 40 dastan nəğl etmişdir ki onların bəziləri kasetlərdə bəzilərdə qırmızı dəftərində 500 səhifədə qorunub saxlanılmışdır. Getdiyi kənd və şəhər toylarında oxunan dastanlardan savayı, gəlin bəylərin adını adı çəkilən qırmızı dəftərdə qeydə almışdır. İndi həmən dəftərin səhifələri 1404 gəlin bəyin gözəl adlarila bəzəmişdi. 2015-ci ilin yayında Azərbaycan respublikasının tanınmış musiqişünası professor Rafiq İmranın dəvətilə Bakıdakı dədə Qorqud danışgahının qonağı olub. Bu dəvətin məqsədi aşıq ədəbiyyatı Zenganın xas mahnilari və şəhrimizin aşıq dastanları haqqında fikir mübadiləsi aparmaq olmuşdur. Türkiyənin Arzurumdakı Ataturk danışgahının türk ədəbiyyatı profesor doktor Qafqazialı "İran Türk Aşıqları və Milli Kimlik" Kitabında Müslüm Əsgərinin 4 şerindən tam şəkildə istifadə etmiş hər dəfə ona ustad ünvanı ilə müraciət etmişdir.

Hər il bayramda Zəngan şəhərində qurulan Aşıqlar Bayramının qonağı olan aşıq Müslüm Əsgəri, dəfələrcə bu mərasimdə iştirak edib hər zaman gənclər üçün bir nümunə olaraq aşıq sənətindən danışıb xüsusi ilə bu sahədə dastanların böyük yer tutduğunu vurğulamışdır. Dahi ustad hər zaman öz ana dilinə və ədəbiyyatına sadiq olubdur. Qırmızı dəftərində məktub etdiyi dastanlar və məclislərdə oxuduğu eşq şeirləri bu həqiqətin şahidi olub, Onun təmiz qəlbli bir insan olduğunu təsdiq etmişdir. Şeirlərlə eşq dastanlarin dərinliklərinə varan aşiq öz zəngin dil və ədəbiyyatından istifadə edərək insanların sevgisini qazanib, illər boyu onların üreyimdə taxt qürmuşdur.

Öz türkü dilimin can qurbaniyam hörməti daha da artmışdır. Böyük sənətkarın dədəlik dərəcəsi almasi münasibətilə onun doğma şəhəri zəngəndə anım mərasimi keçirilibdir. Türk illərinin aşıqları iranın dord bir yanından bu möhtəşəm mərasimdə iştirak edir və dahi sənətkar bir ömür zəhmətlərinə görə ağırlandı.

Mən qoca dünyaya gələndən bəri
El gaminə dahi qaldım qocaldım
Şad olanda bir gün ağladım
Bir gün söhbəti dəminə qaldım qocaldım.

Öz element əmin özümə yaxdım
Düşmanına onun şimşək təkçaqdım
Anaların qəmgin üzünə baxdım
Onların zəhmətin qandım qocaldım.

Atamda anamda adımda gedib
Ağzımda ləzzətim datum da gedib
Huşunda da dağılıb yadımda gedib
Vətən həsrətinə yandım qocaldım.

Müslüm əsgəriyəm elə bağlıyam
Elin qardaşıyan elin oğluyam
Qəmimi bilən yox sinə dağlıyam
O qədər sazımı çaldım qocaldım

Aşıq Müslüm Əsgəri nin adına İranda yayılan iki unvan kitabi - El aşığı kitabı, Dastanlar kitabı

Zəngilanlı aşıq Müslüm Əsgəri nin adına el aşığı adlı kitabı şeirlər toplusu olaraq 2019-cu ilin sonunda zənganda nəşr edilmişdir. Bu kitabda aşıq Müslüm Əsgəri nin aşıq ədəbiyyatı sahəsində ədəbi- bədii yaradıcılığının yalnız bir nümunəsidir. Bundan əvvəl ədəbi yaradıcılığının əksəriyyətinin hekayət nəğlində tətbiq etmiş adını çəkmədən aşıqın bədii şeirlərinin mətninə onun şeirləri də daxil edilmişdir. Bu şeirləri Müslüm Əsgəri bədii yaradıcılığa başladığı vaxtdan müxtəlif illərdə qələmə alıb və illər keçdikcə əlavə olunub. Bu kitaba 40 ildən artıq müddətində ona məxsus ictimai dini və mədəni şeirlər daxil edilmişdir

Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrindən zənganlı aşıq Müslüm Əsgəri nin rəvayəti əsasında dastanlar kitabında aşığın bütün dastanlari çap olunub. Bu ağır kitabda iki ön söz lə original olaraq "Əsli ilə Kərəm ", "Xəstə Qasım ", "Qərib ilə şah sənəm", "Şah İsmayil" , "Şirin ilə

*4. Zəngan şəhəri böyük ustadın dilində aşıqlar ucağı adlandırmışdır bu adın anlamı bu şəhərdə qurulan Aşıqlar Bayramından irəli gəlir. hər il novruz bayramında Zəngan şəhərində təşkil olunan bu mərasimdə bütün türk dünyasından olan o cümlədən Türkiyə və Azərbaycandan olan ustad aşıqlar iştirak edir öz sənətlərinin nümayiş etdirirlər. 2015-ci ildə aşıqlar bayramının onuncu proqramı ustad aşıq Müslüm Əsgəri adına qurulub və həmən mərasimdə ağrılanmışdır.*

*5. Aşıqlar sözə başlayanda oxuyan aşıq Ələsgərin məşhur şeri. "Aşıq Ələsgər gözəllik nəqemakarı" kitabından alınmış bir parça şeirdir.*

*8. Bu məlumatlar Rəzakqi qardaşlarının səhmanladığı Dastanlar kitabı və ustad Müslüm Əsgərinin "El aşığı" kitablarından əldə edilmişdir.*

*9. Dr. Huseyn Siyami*

*10. Zəngan şəhərində hər il yazdan bir ay getmiş aşıqlar bayramı törəni təşkil olunub və bütün türk dünyasından olan ustad aşıqlar bu mərasimdə iştirak edirlər. Qeyd edək ki aşıqlar bayramı mənəvi miras kimi 2010-cu ilin yanvar ayının 22-də qeydə alınıb və Zənganın aşıq musiqi sahəsində bu bayramı keçirilməklə ölkədə yeddi sahə arasında xüsusi yer tutur. Bu mərasim 2005-ci ildən keçirilir.*

*Bu məqaləni hazırlamaqda mənə kömək edən hər kəsə, o cümlədən ALİ AHMADİ (Q ızıl özenə r'derneginin sedr muavini) HAMİDREA BAzARGANİ (fotograf) son dərəcə minnətdaram. Ali ahmadi(Qiii oen derneginin sedr muavin) HAMİDREA BAzARGANİ(fotograf).*



